TARİX və ANTROPOLOGİYA

UOT 94(479.24)
DOI: https://doi.org/10.30546/19063.2025.01.10096

# QƏRBİ AZƏRBAYCANIN DƏRƏLƏYƏZ MAHALININ TARİXİ COĞRAFİYASI (1590-1918)

**BƏXTİYAR KAMİL OĞLU HƏSƏNOV**
*AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun aparıcı elmi işçisi, t.ü.f.d., dosent*

*Azərbaycan Respublikası, Bakı ş., İstiqlaliyyət küç., 30. AZ1001*
*https://orcid.org/0000-0003-4868-2664*
*E-mail: bahtiyarhasanli2022@gmail.com*

**XÜLASƏ**

Məqalədə şimalda Basarkeçər yaylası, şərqdə Zəngəzur silsiləsi, cənubda Ələyəz dağları və Kükü dağı, qərbdə isə Səlim aşırımı yerləşən hündür dağlarla əhatə olunmuş Qərbi Azərbaycanın (indiki Ermənistan) Dərələyəz mahalının tarixi coğrafiyası və orta əsr mənbələrində adları keçən və tamamının Azərbaycan türklərinə məxsus olan toponimlər haqqında məlumatlar verilmişdir. Həmçinin mahala verilmiş Dərələyəz adının toponim kimi yaranması ilə bağlı mənbələrdə olan məlumatlar əsasında izahı da verilmişdir. Bununla yanaşı həm də bu məqalədə orta əsrlərdən günümüzədək Dərələyəz mahalında ayrı-ayrı dövlətlər tərəfindən həyata keçirilən inzibati ərazi bölgüsü haqqında məlumatlar öz əksini tapmış, bu dövlətlər tərəfindən həyata keçirilən inzibati ərazi bölgüsü zamanı dövlət xəzinəsinə ödənilən vergi və torpaqların mülkiyyətçiləri barədə də məlumatlar qeyd edilmişdir. Məqalədə orta əsrlərdə Qərbi Azərbaycanın Dərələyəz mahalında adları çəkilən Azərbaycan türklərinin tayfa, nəsil, ad, dağ, çay, bulaq, relyef və s. ilə bağlı yaratdığı mövcud olmuş toponimlər bölgəni XX əsrdə işğal edən Ermənistan SSR və Ermənistan Respublikası dövlətləri tərəfindən dövlət qərarları ilə tamamilə dəyişdirilərək erməni adları ilə əvəz edilmişdir. Ona görə də Qərbi Azərbaycan (indiki Ermənistan) ərazisində Azərbaycan türklərinin yaratdığı toponimlərin və maddi-mədəni irsin ermənilər tərəfindən məhv edilməməsi üçün bu sahədə fəaliyyət göstərən Beynəlxalq qurumlara müraciət edilməli və onlar qarşısında bu abidələrin qorunması ilə bağlı tələblər qoyulmalıdır.

**Açar sözlər:** *Qərbi Azərbaycan, Dərələyəz, Alagöz, toponim, ərazi, kəndlər.*

## Giriş

Qərbi Azərbaycanın Dərələyəz mahalı özünəməxsus coğrafiyası, gözəl təbiəti, tarixi və mədəniyyəti ilə zəngin bir bölgədir. Bu mahal zamanında Azərbaycan türklərinin sıx yaşayış məskənlərindən biri olmuşdur. Tarixi baxımdan çox əhəmiyyətli bir region olan bu mahal orta əsrlərdə (IX-XVIII) azərbaycan türklərinin yaratdığı ayrı-ayrı dövlətlərin (Albaniya, Sacilər, Salarilər, Şəddadilər, Eldəgizlər, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər, Əfşarlar, xanlıqlar dövrü Naxçıvan xanlığı, sonra Azərbaycan Xalq Cümhuriyyətinin tərkibində öz strateji əhəmiyyətini saxlamışdır. Ayrı-ayrı dövrlərdə qısa müddətə bölgəni işğal edən digər dövlətlər üçün də Dərələyəz ərazisi mühüm strateji əhəmiyyətə malik olmuşdur.

XIX əsrdə çar Rusiyasının Cənubi Qafqazı işğal etməsindən sonra bu bölgədə həyata keçirdiyi inzibati dəyişikliklərə baxmayaraq bu mahalın ərazisi Azərbaycanın tərkibində olmuşdur. Lakin 1920-ci ilin əvvəllərində bolşeviklər tərəfindən Azərbaycan Xalq Cümhuriyyətinin işğal edilməsi nəticəsində Dərələyəz mahalının ərazisi bütünlüklə 1920-ci il avqust-oktyabr aylarında bolşeviklər tərəfindən ermənilərə hədiyyə olaraq verilmiş və sonradan noyabr ayında yaradılan Ermənistan SSRİ-in tərkibinə qatılmışdır. Hazırda Qərbi Azərbaycanın (indiki Ermənistan Respublikasının) ərazisində yerləşir. Lakin Şimali Azərbaycanın qərb torpaqlarında yerləşən bu ərazi Azərbaycan tarixi və mədəniyyəti üçün çox əhəmiyyətli bir bölgədir. Çünki qədim zamanlardan bu mahalın ərazisində yaşayan Azərbaycan türklərinin yaratdığı zəngin maddi-mədəni irs Azərbaycanın tarix və mədəniyyətinə dair dərin izlər buraxmışdır. Mahal strateji əhəmiyyəti ilə yanaşı həm də Azərbaycan türklərinin yaratdığı zəngin maddi-mədəniyyəti çoxsaylı tarixi və mədəni abidələri, qədim qala qalıqları, karvansaraları, məscidləri, türbələri və s. də diqqəti cəlb etmişdir.

### 1. Dərələyəz toponimi haqqında

Ayrı-ayrı xalqların qədim tarixi, sosial-iqtisadi və siyasi həyatı tayfa adlarından törənən etnotoponimlərdə əks olunur. Tədqiqatlar nəticəsində aydın olmuşdur ki, tayfa, tirə, nəsil, qəbilə adlarından törənən yer-yurd adları daha qədimdir.

Qərbi Azərbaycanın Dərələyəz mahalında qeydə alınmış toponimlərin əksəriyyətinin qədim türk et-

nonimləri əsasında yarandığı məlumdur. Etnonimlərlə yanaşı bu ərazidə həm də relyef quruluşuna görə yaranan toponimlər də var.

Q.Məşədiyev "Cənubi Qafqazın Azərbaycan toponimləri" əsərində qeyd edir ki: "Tayfa və nəsil adları vasitəsilə formalaşan kənd adlarını tarixi baxımdan daha qədim hesab etmək lazım gəlir" [11, s. 97].

Bu baxımdan, biz burada "Dərələyəz" adının hansı toponimlərdən yarandığına ayrı-ayrı tədqiqatçıların əsərlərindən istinad gətirərək aydınlıq gətirməyə çalışacağıq.

Belə ki, hələlik əldə etdiyimiz məlumatlara əsaslanaraq qeyd edə bilərik ki, Dərələyəzin adına inzibati-ərazi vahidi kimi ilk dəfə XVI əsrin sonunda Şərəf xan Bidlisinin "Şərəfnamə" əsərində rast gəlinir, müəllif öz əsərində illik vergi yığımından bəhs edərkən qeydə aldığı "... Naxçıvana tabe olan Şərur və Дерейе Алкис (Dəreyi Algis)..." kimi göstərmişdir [24, s.199].

Bəzi tədqiqatçıların əsərlərində də bu söz Dəreyi-Əlkis kimi oxunub yazılsa da o dövr ərəb, fars dillərində "g" hərfi olmadığı üçün əlyazmalarda da "g" hərfi yerinə "k" hərfi yazılmışdır, bu mənbədə verilmiş məlumat sonrakı mənbələrdə XVII əsrdə mahalının adı tarixi mənbələrdə Daralagöz kimi qeydə alınmışdır.

Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun "Naxçıvan torpaq mülkiyyətinə aid XVII-XVIII əsr Kəngərli Arxeoqrafik sənədləri", "Arxeoqrafik və tarixi sənədlər" bölməsində saxlanılan 1691-ci ilə aid olan sənəddə Dərəlagöz mahalının Yurti-Kudul kəndinin adı çəkilir [15, s.112].

Yenə də Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun "Arxeoqrafik və tarixi sənədlər" bölməsində saxlanılan, Şikəstə-təliq xətti ilə yazılmış 1693-cü il aprel (1105 il rəbiəl-sani) ayının əvvəllərində yüzbaşı Şahsuvar bəy Kəngərlinin Dərəlagöz mahalının Qoçubəy və Kürdəmir kəndlərindən aldığı torpaq sahəsinin qəbaləsi adlı sənəddə qeyd edilmişdir. Bu mahalın adı həmin sənəddə "Naxçıvan ölkəsinin Dərəlagöz mahalında yerləşən Qoçubəy və Kürdəmir kənd" mülkiyyətinin Gənci Cəmşidli tərəfindən satıldığı haqqında şəriət məhkəməsində bağlanmış müqavilədə inzibati ərazi vahidi kimi qeyd edilmişdir [15, s.38].

Sənədin arxasında isə "Piri Cəmşidlinin Dərəlagöz mahalındakı Qoçubəy və Kürdəmir kəndlərinin iki hissə yarımına məxsus qəbaləsi" qeyd edilmişdir [15, s.112].

Yenə də Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun "Arxeoqrafik və tarixi sənədlər" bölməsində saxlanılan 1724-cü ilə aid Dərəlagöz mahalının "Pur və Paşalı kəndlərinə məxsus vergi hesabında olan borcun ödənilməsi haqqında son xəbərdarlıq" adlı sənəddə həm Dərəlagöz mahalının, həm də mahalın Pur (Por) və Paşalı kəndlərinin adları çəkilir [15, s.47-48; s.127-128].

Dərələyəz toponiminə erməni alimləri də münasibət bildirmişdir. Erməni alimi A.D.Papazyan bu sözü "Dərə-ye Alaqis" (Dəreyi Alagis) kimi verir [19, s.50].

Başqa bir erməni alimi Qorqodyan bu adı Ələyəz (Alayaz) [14, s.160] kimi qeyd edir. Erməni alimlərinin bir çoxu Hakopyan T.X., Məlik Baxşyan St.T., Barseğyan O.X. qeyd edirlər ki, fikrimizcə, kəndin ilkin və əsil adı "Alagöz"dür. Burada XI-XIII əsrlərə aid azərbaycanlılarla (Azərbaycan türkləri-H.B.) bağlı tarixi abidələr vardır [9, s.62]. Erməni alimi Yeğiazaryan isə kəndin adının V əsrdən xatırlandığını yazır [16, s.57], ancaq mənbə göstərmir.

Dərələyəz mahalında mənbələrdə Alagöz kənd adı da keçir. Alagöz kəndi İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indi Keşişkənd (Yeğeqnadzor) rayon mərkəzindən 15 km şimal-şərqdə, Alagöz çayının yanında, Alagöz çayının sağ qolu olan Yoğun su çayının sahilində yerləşir. Kəndin adı 1728-ci il tarixdə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə Ələyəz [ 7, s.58], "Qafqazın 5 verstlik xəritəsi"ndə Alagöz [18], "Сборник сведений о Кавказе" toplusunda Alagöz və Ələyəz (Alayaz) [22, s.10], kimi verilir.

Rus tədqiqatçısı Paqirev "Qafqazın diyarının beş verstlik xəritəsi" əsərində Şərur-Dərələyəz qəzasında Alagöz (Алагез) kəndinin olduğunu qeyd etmişdir [18, s.10].

Alagöz toponimi türk mənşəli etnonimidir, XIX əsrdə Şimali Qafqazda Dağıstan əyalətinin Teymurxanşura dairəsində Alagöz, Naxçıvan qəzasında Alagöz-Məzrə, Şərur-Dərələyəz qəzasında Alagöz kənd xarabalığı, Qars əyalətinin Kaqızman dairəsində Alagöz kənd xarabalığı, Şərur-Dərələyəz qəzasında Alagöz çayı, Qərbi Azərbaycan ərazisində Alagöz dağı, Qars əyalətinin Ərdəhan dairəsində Alagöz kənd adları ilə mənşəcə eynidir.

Budaq Budaqov və Qiyasəddin Qeybullayevin "Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti" əsərində də Dərələyəz mahalının Yexeqnadzor (Keşişkənd) rayonu ərazisində Alagöz kəndi göstərilmişdir [2, s.118].

Dərələyəz toponiminə mərhum professor əslən Dərələyəzdən olan Həsən Mirzəyev də münasibət bildirərək yazır ki, tarixi mənbələrdə Dərələyəz mahalının Ələyəz kəndinin adı Alagöz kimi tanınır [10, s.189].

Tanınmış alim İ.Bayramov da "Dərələyəz" toponiminin "dərə" sözündən və "Alagöz" toponimindən yarandığını irəli sürmüşdür [1, s.131].

Kameral təsvirlərin tədqiqatçısı Nazir Əhmədli isə apardığı tədqiqatlarda "Dərələyəz mahalının kameral təsviri (1831-ci və 1842-ci illər)" əsərində Dərələyəz toponimini Dərələyəzdə ələyəz adlı geniş yayılmış bir bitki (insanların yemək üçün istifadə etdiyi bitki) olan ələyəz bitkisi ilə əlaqələndirərək "Dərələyəz" toponiminin "ələyəz bitkisinin bol olduğu dərə" anlamını verdiyini yazmışdır [5, s.3-4].

Tədqiqatçı Elçin Qarayev öz əsərində XIX-XX əsrin əvvəllərində Dərələyəz mahalında Alagöz kənd cəmiyyətinin fəaliyyət göstərdiyini yazır [13, s.3-4].

Dərə toponiminə gəldikdə isə qeyd edə bilərik ki, bu da türk mənşəli etnonimdir. Türkiyə tarixçisi Cevdet Türkay özünün "Osmanlı İmperatorluğunda Oymak Aşiret ve Cemaatlar" əsərində arxiv sənədlərinə əsaslanaraq "dərə", "dərəli" tayfalarının türkmən tayfaları olduğunu və Osmanlı dövlətinin ayrı-ayrı bölgələrində yaşadıqlarını qeyd etmişdir. O, yazır ki, "Dere tayfaları Emirdağ, Şorba, Ankara-Paşa sancağları, Söğüd kazasında yaşamış Türkman taifesindendirler" [3, s.320-321], həmçinin "Dereli (Derelü) taifesi Adana sancağı, Ankara sancağı, Paşa sancağı, Zülkadriyye kazası, Giresun kazası, Trabzon sancağı, Bəypınarında yaylayıb, Kürenam mahalda qışlarlar Türkman Yörükan taifesindendirler" [3, s.321].

Bizim elmi mülahizələrimizə görə də Dərələyəz toponimi arxaikləşmiş sözlər əsasında yaranmış, Dərə və Alagöz etnonimləri əsasında əmələ gəlmiş, Dərə və Alagöz tayfalarının yaşadığı yer mənasında işlənmişdir. Çünki yuxarıda göstərilən və göstərilməyən digər mənbələrin əksəriyyətində də Dərələyəz mahalının ərazisində Dərə və Alagöz toponimlərinin hələ ilk orta əsrlərdən işlənildiyi göstərilmişdir.

**2. Dərələyəz mahalının inzibati-ərazi bölgüsü**

Qərbi Azərbaycanın mahallarından biri olan Dərələyəz mahalı şərqdə Zəngəzur, qərbdə Vedibasar, şimalda Göyçə, cənubda Naxçıvan mahallarının əraziləri ilə həmsərhəd olmuşdur.

Azərbaycan Səfəvi dövləti ilə Osmanlı dövləti arasında XVI-XVII əsrlərdə baş vermiş müharibələr zamanı İrəvan, Naxçıvan və Qarabağ əraziləri əldən-ələ keçmişdir. Hələ Səfəvi dövlətinin dövründə Çuxursəəd bəylərbəyliyinin tərkibinə Naxçıvan əyalətinin tərkibinə daxil olan Dərələyəz mahalının ərazisi sonradan 1578-ci ildə Osmanlı dövlətinin, Səfəvi dövlətinin qərb ərazilərinə hücumu nəticəsində Osmanlı dövlətinin əlinə keçdi. 1590-cı ildə bağlanmış İstanbul sülh müqaviləsinin şərtlərinə görə Azərbaycan Səfəvi dövləti məğlub tərəf kimi İrəvan, Naxçıvan və Qarabağ əraziləri daxil olmaqla qərb torpaqlarını Osmanlı dövlətinə güzəştə getməli olduğu üçün Osmanlı dövlətinin yaratdığı inzibati ərazi bölgüsünə daxil edilmişdir. Bu əraziləri ələ keçirən Osmanlı dövləti burada inzibati ərazi dəyişikliyi həyata keçirərək siyahıyaalmalar aparmağa başladı. Bəhs etdiyimiz Dərələyəz mahalının adı Osmanlı dövləti tərəfindən tərtib edilmiş 1590-cı il "İrəvan vilayətinin müfəssəl dəftəri"ndə qeyd edilməsə də, Dərələyəz mahalının ərazisinə daxil olan Məvaziyi-Xatun nahiyyəsinin adı və kəndləri haqqında məlumatlar Naxçıvan Sancağının tərkibində verilmişdir. 1727-1728-ci illərdə tərtib etdiyi "İrəvan əyalətinin icmal dəftəri" və "Naxçıvan Sancağının müfəssəl dəftəri"ndə isə ayrıca Dərələyəz nahiyyəsi kimi qeyd edilmiş, həmçinin Məvaziyi-Xatun nahiyyəsinin adı və kəndləri haqqında da ayrıca nahiyyə kimi məlumatlar verilmişdir.

Qeyd etdiyimiz 1590-cı ilin "müfəssəl dəftər"inə görə, XVI əsrin sonlarında Naxçıvan sancağı eyni adlı qəzadan və Ağcaqala, Məvaziyi-Xatun, Mülki-Arslanlı, Qarabağ, Dərəşam, Dərəşahbuz, Bazarçayı, Şərur, Zar, Zebil, Əlincə, Sisyan, Azadciran, Ordubad, Şorlut və Dərənürgüt nahiyyələrindən ibarət olmuşdur ki, bu nahiyələrdən biri Məvaziyi-Xatun, Dərələyəz mahalının ərazisinin bir hissəsində yaradılmışdır [8, s.16].

Osmanlı dövlətinin 1590-cı ildə tərtib etdiyi "İrəvan vilayətinin müfəssəl dəftəri"ndə verilmiş məlumatlarda Naxçıvan sancağının ərazisinə daxil olan hazırkı Dərələyəz mahalının sərhədləri daxilində yerləşən Məvaziyi-Xatun nahiyəsinin ərazisində Levnis? (Livis), Sultanbəy, Ağxaç, Oğbin, Oğbin kəndinə tabe olan Qızılca məzrəəsi, İtqıran (Gülüstan), Kürədiz (Horadiz), Digin, Digin kəndinə tabe olan Aydaş məzrəəsi, Almalıq (Almalı) kimi kəndlərin adları qeyd edilmişdir [8, s.170].

Bu kəndlərdən və məzrəələrdən yalnız ikisində Sultanbəy kəndində 10 nəfər, Livis kəndində isə 14 nəfər qeyri-müsəlman əhali yaşamışdır [8, s.245-247]. Kəndlərin adından da göründüyü kimi, bu kəndlər bu dövrə qədər türk kəndləri olub. Burada yaşayan xristian əhali isə bu iki kəndlərə gəlmədir. Mənbənin verdiyi məlumata görə, bu iki kənddə

qeydiyyata alınmamış əhalidən hər kənd üzrə 100 ağça vergi alınmışdır.

Bizim fikrimizcə, bu qeydiyyata alınmamış əhalinin əksəriyyəti gəlmə xristian əhalisi olub. Çünki mənbənin digər kəndlər haqqında verdiyi məlumatlarda xristian əhalisinin sayı hansı kəndlərdə çoxalırsa, o kəndlərdə qeydiyyata düşməyən əhalinin vergisi də çoxalmışdır. Ona görə də hesab edirik ki, kəndlərdə qeydiyyata alınmamış əhali əsasən gəlmə xristian əhalisi olmuşdur. Qalan kəndlər isə Azərbaycan türklərinin istifadəsində olmuş, yalnız Oğbin kəndinə tabe olan Qızılca məzrəəsi boş yaşayış yeri kimi göstərilmişdir.

Osmanlı dövlətinin 1590-cı ildə tərtib etdiyi "İrəvan vilayətinin müfəssəl dəftəri"ndə Dərələyəz mahalının ərazisində olan və digər nahiyələrə daxil edilən kəndlər isə bu kəndlər olub. Zebil nahiyəsinə Martenus (Vartanus), Moz, Bazarçay nahiyəsinə Kələdək, Pur, Yengicə və s.

1590-cı ildə həyata keçirilmiş siyahıyaalmada Dərələyəz nahiyəsinə aid edilən kəndlərin bir neçəsi başqa nahiyələrin tərkibində qeyd edilmişdir. Ancaq 1728-ci ildə yenidən Osmanlı dövləti tərəfindən aparılan siyahıyaalmada həm Dərələyəz nahiyəsi, həm də Məvaziyi-Xatun nahiyəsi və kəndləri haqqında müfəssəl məlumatlar verilmişdir.

Osmanlı dövlətinin 1727-1728-ci illərdə apardığı siyahıyaalmalara görə istər ərazisi, istərsə də yasayış məskənlərinin sayına görə, Dərələyəz nahiyəsi Naxçıvan sancağının ən böyük ərazi-inzibati vahidi olmuşdu. Burada 1727-ci ildə 99 kənd və 5 məzrəə qeydə alınmışdı. Bunların da yalnız 68-i məskun olmuş, digərlərində isə bu dövrdə heç kim yaşamamışdır. Hazırkı Dərələyəz mahalının sərhədləri daxilində yerləşən Məvaziyi-Xatun nahiyəsinin ərazisində isə cəmi dörd kəndin adı yaşayış yeri kimi qeyd edilmişdir. Digər kəndlərin ərazisi Azərbaycan türkləri olan mülkədarların ərazisi kimi verilmişdir. Göründüyü kimi 1590-cı ildə Məvaziyi-Xatun nahiyəsinin 8 kənd, 2 məzrəsindən, yalnız 4 kəndində əhali qalmışdır. Qalan türklər yaşayan kəndlərin şiə əhalisi kəndləri tərk etmişlər [7, s.245-247].

Ermənilərin bu kəndlərdə yerləşmələrinə gəldikdə, onu qeyd edə bilərik ki, mənbələrin verdiyi məlumatlarda Azərbaycan Səfəvi dövləti ilə Osmanlı dövləti arasında gedən müharibələr zamanı ərazinin əldən-ələ keçməsi nəticəsində bu kəndlərdə yaşayan müsəlman şiə əhali yaşayış yerlərini tərk edərək indiki Cənubi Azərbaycana və digər bölgələrə köç etmişdir. Verilmiş məlumatlardan da görünür ki, XVI əsrin sonunadək ermənilər bu kəndlərdə yaşamamışlar. Onlar buraya, həmin kəndlərin türk-müsəlman əhalisi öz yerlərini tərk etdikdən sonra hər kəndə bir neçə ailə olmaqla məskunlaşmışlar.

Bu, 1727-1728-ci illərdə Dərələyəz nahiyəsinin ermənilər yaşayan 33 kəndinin adlarından da görünür. Bunlar Arpa, Amağu, Civə, Aynazor, Haviç (Havuş), Cağazur, Üstün, Hurevadin, Ayısəsi, Gələnçəvir, Ərdəpin, Ərdiş, Hors, Ortaköy, Züyrək, Keşiş, Başköy, Kisək, Ərgəz, Kükivanis, Azadək, Zeytə, Herher (Qarqar, Gərgər), Kotanlı, Qurd Əmir, Gümüşcü (Gümüşxana), Arınc, Cul, Kömür (Gomur), Kabud (Gabud), Qındevas (Gindevas), Horadüz [7, s.42-45] kəndləridir ki, adlarından da göründüyü kimi bu kəndlərin hamısı türk-müsəlman əhali tərəfindən salınmış və onlar buralardan köçdükdən sonra, ermənilər XVII əsrin sonları və yaxud XVIII əsrin əvvəllərində bu kəndlərə yerləşmişdilər. Çünki, verilmiş məlumatlarda bu kəndlərin hər birində 2, 3, və daha çox sayda xristian ailəsinin yaşaması yuxarıda verilmiş fikirləri təsdiqləyir ki, ermənilər bu ərazilərə yalnız XVII əsrin sonu - XVIII əsrlərdə gəlmişlər.

Hazırda əldə olan sənədlərdən və bir çox xarici tarixçilərin verdiyi məlumatlardan dünya ictimaiyyətinə də məlumdur ki, bu gün Qərbi Azərbaycan ərazisində yaşayan ermənilərin əksəriyyəti XIX-XX əsrlərdə xarici ölkələrdən bu ərazilərə köçürülüb gətirilən ermənilərdir. Çünki, orta əsrlərdən XX əsrin birinci yarısına qədər olan məlumatlar göstərir ki, Qərbi Azərbaycanın mahallarının əhalisinin əksəriyyəti Azərbaycan türkləri olmuşdur, yalnız XX əsr (1905-1906, 1918-1920, 1948-1955, 1988-1989) deportasiyalarından sonra mahalların ərazisində hazırda bir nəfər də olsun Azərbaycan türkü qalmamışdır.

Osmanlı dövlətinin apardığı siyahıyaalmalarda 1728-ci ildə "İrəvan əyalətinin icmal dəftəri"ndə və "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə Dərələyəz nahiyəsinə aşağıdakı kəndlər daxil olub. Kəndlərin adı həm "İrəvan əyalətinin icmal dəftəri"ndə, həm də "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə olduğu kimi verilmişdir, bəzi kəndlərin adı bizim tərəfimizdən dəqiqləşdirilmişdir.

Bunlar Axura kəndi, Həmzəli kəndi, Kərəmpa məzrəəsi, Kövərhəsən (?) (Gövhərhəsən- H. B.) otlağı və Sübhankənd, Havicə (Havuş- H.B.) kəndi ("Naxçıvan sancağının müfəssəl dəftəri"ndə (NSMD) bu kəndin adı "Həviç" şəklində yazılmışdır), Məradik (Mərəlik-H.B.) kəndi, Meşin kəndi (NSMD-də bu kəndin adı "Heşin"), Yaycı kəndi, Cağazur kəndi, Xaçik kəndi, Kələdək kəndi, Kənizək kəndi, Veysəlli kəndi, Aqu kəndi (NSMD-də bu kəndin adı "Əyər"), Dayərnəd kəndi (NSMD-də bu kəndin adı "Dakzid",

"Danzik"), Arpa kəndi, Amaqu (Amağu-H.B.) kəndi, Çivə kəndi, Qızılgör kəndi (Qızılgül-H.B., kəndin başqa adı Şəkərbəylidir), İynəviz kəndi (NSMD-də bu kəndin adı "İynədiz"), Bağçacıq kəndi, Rind kəndi, Qozluca kəndi, Kəsəngör kəndi (NSMD-də bu kəndin adı "Kərəkor"), Çanaqçı kəndi, Keşişviranı kəndi, Urnut kəndi, Xats kəndi (NSMD-də bu kəndin adı "Xıns"), Cəfərli kəndi, Qaşqa kəndi, Ənguri kəndi (NSMD-də bu kəndin adı "Ənguzi"), Telsin kəndi, Havinçək kəndi (NSMD-də bu kəndin adı "Çavuşcuq"), Ervilas kəndi (NSMD-də bu kəndin adı "Ərdalas"), İynəli kəndi (NSMD-də bu kəndin adı "Əyrili"), Kərinüd kəndi (NSMD-də bu kəndin adı "Künküd"), Abana kəndi və Xunək məzrəəsi, Vartanus kəndi, Vahuseyni kəndi, Ağcavənk kəndi, Bəmətüm kəndi (NSMD-də bu kəndin adı "Pərtüm"), Ağkilsə kəndi, Qızqalası kəndi, Qoytul kəndi (NSMD-də bu kəndin adı "Qutyol"), Sədərəkxan qışlağı məzrəəsi əvvəllər bura kənd imiş (NSMD-də bu kəndin adı "Sədərək"), Meydan kəndi, kəndin başqa adı Əli qışlağıdır, Ələyəz və Ustup kəndi, Şahyurdu məzrəəsi, əvvəllər bura kənd imiş, Ərdiş kəndi, Kəmənkəlül məzrəəsi (NSMD-də bu kəndin adı "Gərəgüllük"), Şahyurdu məzrəəsi, Şayi məzrəəsi, əvvəllər bura kənd imiş (NSMD-də bu kəndin adı "Sallı"), Xors (Hors-H.B.) kəndi, Obagöy (Obaköy-H.B.) kəndi (NSMD-də bu kəndin adı "Ortagöy", Ortakənd-H.B.), Rüyərək kəndi (NSMD-də bu kəndin adı "Züyrək"), Keşişkənd, Başgöy (Başköy-H.B., Başkənd) kəndi, Kənsək kəndi (NSMD-də bu kəndin adı "Kisək"), Yenicə kəndi, Vartayub kəndi (NSMD-də bu kəndin adı "Vartayol"), Morzav kəndi, Ərgəz kəndi, Maliki kəndi, kəndin başqa adı Mülkdür (NSMD-də bu kəndin adı "Məlikşah"), Küküvanıs kəndi, Mor kəndi (NSMD-də bu kəndin adı "Moz"), Çağatay kəndi, Dədəli kəndi və digər Dədəli kəndi, Asəfi kəndi, Boşadır kəndi, kəndin başqa adı Daylaqandır (NSMD-də bu kəndin adı "Puşadiz" (Paşadüz-H.B.)), Azadək kəndi, Əxili kəndi, Zeytə kəndi, Soyulan (Söylən-H.B.) kəndi, Hərhər (Gərgər, Qarqar-H.B.) kəndi, Kotanı (Kotanlı-H.B.) kəndi, Qoçubəy (Köçbəy-H.B.) kəndi, Turub (Terp-H.B.) kəndi (NSMD-də bu kəndin adı "Turtun"), Birək kəndi, Qalabəy kəndi, Pürhəsənli kəndi, Salçı kəndi, Qurd Əmir kəndi, Gümüşcüq (Gümüşxana-H.B.) kəndi, Por kəndi, Ərsinc (Ayrınc-H.B.) kəndi (NSMD-də bu kəndin adı "Ərnic"), Cul kəndi, Paşalı kəndi, Kömür (Gomur-H.B.) kəndi, Kabud (Gabud-H.B.) kəndi, Axta kəndi, Qındevas (Gindivas-H.B.) kəndi, Qayalı kəndi, Mardiros (Mərdürüst-H.B.) kəndi, Birək kəndi tərəfdə olan Quşçu xarabası kəndi, Qaravənk kəndi, Muğanlı kəndi. Kəndin başqa adı Nağıyurddur (NSMD-də bu kəndin adı "Yurdçu"), Hərədur kəndi (NSMD-də bu kəndin adı "Horadiz"), Qaraqaya kəndi, Moravik kəndi, Həşim kəndi, Künnüd (Günnüd-H.B.) kəndi, Vahsni kəndi, Tərətum kəndi, Məndərvanıs kəndi, Dibi kəndi, Kərəkülük kəndi, Ərdəpin kəndləri olmuşdur [7, s.42-45; s.20-22; 10, s.46-48].

Yuxarıda adları çəkilən kəndlərin adlarından da görünür ki, hələ orta əsrlərdə Dərələyəz mahalının kəndlərinin əksəriyyəti Azərbaycan türklərinə məxsus kəndlər olub. Bu kəndlərə xristian əhalisi sonradan məskunlaşıb. Çünki, elə kəndlər var ki, orada yalnız bir neçə xristian ailəsi yaşamasına baxmayaraq kəndin adı Azərbaycan türklərinə məxsus adla qeydiyyata alınmışdır. Yuxarıda verilən faktlardan belə bir nəticəyə gəlmək olur ki, bu kəndlərdə yaşayan xristian əhalisinin bir hissəsi xristian qıpçaq türkləri olub, ona görə, də kəndin adını öz dillərində olduğu kimi saxlayıblar, digər halda kəndlərdə məskunlaşan xristian əhalisi ermənilər olubsa onda onlar bura sonradan gəlmədirlər, çünki, kəndlərin keçmiş adları da türk toponimlərindən ibarətdir. Biz nəzərə alsaq ki, xristian ermənilər son 100 ildə Qərbi Azərbaycan ərazisində mövcud olan 2000 mindən çox toponimi ya məhv etmiş, ya saxtalaşdırmış, ya da adını dəyişərək erməni adları qoymuşlar, onda əsaslı olaraq qeyd etməliyik ki, yuxarıda verilmiş faktlar ermənilərin bu ərazilərə gəlmə olduğunu təsdiqləyir, əgər ermənilər bu kəndlərin sakinləri idisə, nəyə görə, kəndlərin adını XX əsrə qədər dəyişərək erməni adları ilə əvəzləməmişlər?.

Osmanlı dövlətindən bu əraziləri geri alan Azərbaycan Səfəvi dövləti yenə də Dərələyəz ərazisini Çuxursəəd bəylərbəyliyinin tərkibinə daxil etdi. Səfəvi dövlətinin süquta uğramasından sonra yaranan Əfşarlar dövləti ərazini Azərbaycan vilayətinin tərkibinə daxil etdi. Əfşar dövlətinin süquta uğraması ilə Dərələyəz mahalının ərazisi Naxçıvan xanlığının ərazisinə qatıldı.

Lakin Dərələyəz mahalı Naxçıvan xanlığına tabe olduğu vaxt bugünkü tarixi ərazisindən də geniş ərazini əhatə etmişdir. Belə ki, Azərbaycanın hazırkı Şərur rayonuna daxil olan Axura, Həmzəli, Həmzəli-Dizə, Yaycı, Cağazir, Danzik, Havuş, Günnüt kəndləri, həmçinin Ermənistanın Vedi rayonunun Çanaxçı, Hortun, Bağçacıq, Cəfərli, Qaşqa, Keşiş viranı və bəzi digər kəndləri də həmin vaxt Dərələyəz mahalına daxil idi [23].

1828-ci ildə çar Rusiyası ilə Qacarlar dövləti arasında bağlanan Türkmənçay müqaviləsinin şərt-

lərinə görə Dərələyəzin ərazisi də çar Rusiyasının işğalına məruz qaldı və burada da çar Rusiyası tərəfindən inzibati ərazi dəyişikliyi həyata keçirildi. İnzibati-ərazi dəyişikliyi ilə yanaşı Çar Rusiyası həm də 1828-ci ildən başlayaraq Cənubi Qafqaza, o cümlədən Dərələyəz mahalının ərazilərinə ermənilərin kütləvi surətdə köçürülməsini təşkil edərək bölgədə demoqrafik vəziyyəti xristian erməni əhalisinin hesabına dəyişməyə çalışdı ki, sonralar buna nail oldu.

1828-ci il martın 21-də çar I Nikolayın fərmanı ilə İrəvan və Naxçıvan xanlıqları ərazilərində Azərbaycan xalqının iradəsinin əleyhinə olaraq ermənilər üçün qondarma "Erməni Vilayəti" yaradıldı. Dərələyəz mahalının ərazisi də bu vilayətin tərkibinə daxil edildi. Bu ərazi çar Rusiyasının inzibati ərazi dəyişiklikləri aparması nəticəsində sonradan 1840-1849-cu illərdə Gürcü-İmeretiya və Tiflis quberniyalarının 1849-cu ildən isə İrəvan Quberniyasının tərkibinə daxil edildi.

1849-cu il iyunun 9-da bugünkü Qərbi Azərbaycan əraziləri də daxil olmaqla yaradılan İrəvan quberniyasında XIX əsrin 70-ci illərinin əvvəllərinə qədər bir neçə inzibati-ərazi dəyişikliyi olmuşdur. İlk yarandığı gündən beş qəzadan (İrəvan, Naxçıvan, Ordubad, Yenibəyazid və Aleksandropol) ibarət olan quberniya 1859-cu il iyunun 19-da çarın fərmanına görə, İrəvan qəzası hesabına yeni bir qəza - Üçmüəzzin qəzası yaradılmışdır [20].

İrəvan quberniyasına daxil olan Naxçıvan qəzası 6 mahala bölünmüşdü ki, bu mahalların üçü Yaycı mahalı, Dərələyəz mahalı, Məvazeyi-xatun mahalı qəzanın Dərələyəz hissəsinə aid idi [6, s.30].

Lakin 1867-ci il dekabrın 9-da verilmiş fərmana görə Ordubad qəzası ləğv edilmiş, 1872-ci ildə isə yeni qəzalar Şərur-Dərələyəz və Sürməli qəzaları yaranmışdır [21].

İrəvan quberniyasının inzibati-ərazi bölgüsünə daxil olan Şərur-Dərələyəz qəzası Şərqi Arpaçayın bütün vadisini, Araz çayının sağ sahilini tutmuşdu. O, şimaldan Yenibəyazid qəzası, cənubdan Naxçıvan qəzası, cənub-qərbdən Araz çayı sərhəd olmaqla Qacar dövləti, şərqdən isə Yelizavetpol quberniyasının Cavanşir qəzası ilə həmsərhəd olmuşdur. Qəza mərkəzi Başnoraşen kəndi olmuş, ümumi sahəsi isə 277917 desyatin, yaxud 2637, 50 kv verst, 3001, 54 kv. km idi [17].

1886-cı ildə mövcud olmuş Şərur-Dərələyəz qəzasının inzibati bölgüsünə görə, Dərələyəzin sahəsinə 1890,24 kv.verst, 196890 desyatin, yaxud 2151,13 kv.km olan polis sahələri daxil olmuşdur. Bu polis sahəsinin pristavı Keşişkənddə yerləşirdi və Alagöz 20 kənd, Gindivas 22 kənd, Cul 8 kənd, Keşişkənd 16 kənd, Ginişik 8 kənd, Qozlu Yaycı 15 kənd, Mərdürüst 10 kənd cəmiyyətlərindən ibarət idi [12, s.3-4]. Şərur-Dərələyəz qəzasının Dərələyəz sahəsində cəmi 99 kənd qeydə alınmışdır.

1886-cı ildə Dərələyəz mahalına aid edilmiş kəndlərdəki vəziyyət belə olmuşdur: Əgər 1833-cü ildə Dərələyəz mahalının yalnız 2 kəndində (Arpa, Xaçik) ermənilər məskunlaşdırılmış və 3 kəndində (Qoytul, Azadcıq, Martiros (Mərdürüst)) ermənilərlə azərbaycanlılar birgə yaşamağa məcbur edilmişdilərsə, 1886-cı ildə bu 2 rəqəm 23-ə çatdırılmışdır. Azərbaycanlılar ermənilərlə birgə yaşadıqları kəndlərdən çıxarılmış və ermənilər zorla azərbaycanlılar yaşadığı kəndlərə yerləşdirilmişlər. Bu sənəddə 99 azərbaycanlı kəndindən 23-də (Kələkulux, Tərətum, Həsənkənd, Erdəpin (Ərdəpin), Quşçu, Əyər, Baş kənd, Keşişkənd (Keşkəndi), Qoytul, Məlişkə (Məlikşah), Orta kənd, Yengicə, Ginişik (Keneşik), Xaçik, Aynəzir, Arpa, Rind, Yelpin, Azadək, Martiros (Mərdürüst) Paşalı, Por, Söylan kəndlərində) yalnız ermənilərin yaşadığı göstərilir [10, s.30].

Halbuki bu kəndlərin hamısı 1590, 1727-ci illərdə Osmanlı dövləti tərəfindən aparılmış siyahıyaalmalarda Azərbaycan türklərinə məxsus olmuş və onlar əsrlər boyu bu kəndlərdə yaşamış və sonralar öz doğma yuvalarından sıxışdırılıb çıxarılmışlar. Bu müddətdə azərbaycanlılara məxsus olan Herher, Kindivaz, Daşaltı kəndlərinə də erməniləri zorla doldurmuşlar ki, bu kəndlərdən də gələcəkdə azərbaycanlıları çıxarsınlar. Əgər 1833-cü ildə Dərələyəzdəki erməni ailələrinin (tüstünün) sayı 142 idisə, 1886-cı ildə bu ailələrin sayı 10 dəfədən də çox artaraq 1486 olmuş, erməni əhalisinin sayı 13487 nəfərə çatmış və 1905-ci ilə qədər bu rəqəm daha da çoxalmışdır [10, s.30].

Dərələyəz mahalının inzibati ərazisinin sərhədləri sonralar 10 rayonun - Şərur, Sədərək, Babək, Şahbuz, Kəlbəcər, Laçın, Vedi (Ararat), Qaranlıq (Martuni), Basarkeçər (Vardenis), Qarakilsə (Sisyan) rayonunun əhatəsində yerləşmiş, çox böyük bir ərazini əhatə etmişdir. Dərələyəz mahalı yüksək dağ silsilələri ilə əhatə olunmuşdur. Onun ətraf və sərhədlərində Ağmanqan, Əyricə, Selimin gədiyi, Şahabbas//Səlimin karvansarası, Yanığın düzü, Xartdığın yalı, Dəmirtəpə, Qaraçı yurdu, Təzəkli, Murtuza yurdu, Soğanlı, Qaçaq qayası, Xalaclar yurdu, Versin dağı, Dikpilləkən, Bərkdərə, Əyri yol, Soyuqbulaq, Sarı yer, Muradtəpə, Keçəldağ, Kükü dağı, Qırxbulaq, Qısır dağ, Quşçubilək, Biçənək aşırımı, Batabat və s. yüzlərlə oğuz türklərinə məxsus dağlar, yaylaqlar, aşırımlar, yollar vardır. Arpa çayının iki böyük qolu

mənbəyini Dərələyəzin sərhədlərindən götürüb Şərur ərazisində Araz çayına tökülür [10, s.19].

Azərbaycan türklərinin məskəni olan Dərələyəz mahalı Ermənistan SSR dövründə iki rayonu – Mikoyan,Yeğeqnadzor (Keşişkənd) və Paşalı, Söylən, Əzizbəyov (Vayk) rayonlarını əhatə etmişdir.

Şərur-Dərələyəz qəzası İrəvan quberniyasına daxil edildikdən sonra isə bu kəndlər Şərur və Vedi rayonu ərazisinə qatıldı. İki rayonun mərkəzi Keşkənd (Mikoyan) rayonu oldu. Lakin rayonun adı Əzizbəyovun adı ilə adlandı. Əlavə edək ki, uzun müddət Dərələyəz mahalı ilə Şərur bir inzibati bölgüyə aid edilmiş və bu gah Naxçıvan əyalətinin, gah da İrəvan quberniyasının "Şərur-Dərələyəz" qəzası adlandırılmışdır. Qəzanın mərkəzi isə Şərurun Baş Noraşen (Cəlilkənd) kəndi olmuşdur. Dərələyəz 1920-ci ilə qədər Azərbaycan Xalq Cümhuriyyətinin və Azərbaycan SSR-in tərkibində idi. 1920-ci il oktyabrın 30-da rus şovinistləri və erməni daşnaklarının, xüsusən türk düşməni olan Stalin, Mikoyan və Şaumyanın köməyi və təkidi ilə Azərbaycanın Zəngəzur, Göyçə, Qaraqoyunlu mahalları kimi Dərələyəz mahalı da Azərbaycandan alınıb ermənilərə verildi. 1931-ci il oktyabrın 15-də Dərələyəz Ermənistan hökuməti tərəfindən 2 rayona - Keşişkənd (Keşkənd, Yeğeqnadzor) və Paşalı (Söylən, Əzizbəyov) rayonlarına bölündü. Dərələyəzin indiki sahəsi 2308 kv. km-dir. Bu sahədən 1134 kv. km Yeğeqnadzor (Keşkənd, hazırda Keşişkənd) rayonunun, 1174 kv. km isə Əzizbəyov (Paşalı, hazırda Vayk) rayonunun payına düşür [4].

Keşkənd rayonu 1931-ci ildən 1935-ci ilə qədər Keşişkənd, 1935-ci ildən 1956-cı ilə qədər Mikoyan, 1956-cı il oktyabrın 12-dən Əzizbəyov, 1957-ci ildən sonra isə Yeğeqnadzor (Qamışlı dərə) adlandırılmışdır. Əzizbəyov rayonu isə 1931-ci ildən Paşalı, 1956-cı ildən Söylən, Əzizbəyov, 1988-ci ildən Vayk adlandırılmışdır [10, s.18].

1956-cı ildə iki rayon birləşərək Əzizbəyov rayonu yaradılsa da 1957-ci ildə rayonlar yenidən ayrılmışdı. Ermənilər Keşişkənd (Keşkənd) rayonuna yenidən Mikoyanın adının verilməsini təklif etsələr də Moskva bu adı təsdiq etməmişdir. Bir müddətdən sonra bu adı dəyişdirib rayona 1957-ci ildə Yeğeqnadzor (Qamışlı dərə) adı verdilər. Paşalı rayonuna isə Əzizbəyovun adı verildi. Nəhayət, 1991-ci ildə Əzizbəyovun adını götürüb rayona Vayk adı verdilər. Hazırda Dərələyəz mahalı Qərbi Azərbaycan (indiki Ermənistan) ərazisində Vayots dzor mərzi adlanır və mərkəzi Keşişkənddir.

Sonda qeyd etmək lazımdır ki, nəinki Qafqazın, o cümlədən dünyanın gözəl guşələrindən biri olan Dərələyəz mahalının gözəl təbiəti hələ XIX əsrdə çar Rusiyası tərəfindən Qafqaza göndərilən, Qafqazı qarış-qarış gəzmiş, Qafqazın tarixi, coğrafiyası, abidələri, əhalisi, toponimləri və s. haqqında sanballı kitab yazan, Dərələyəz mahalına yaxından bələd olan İ.Şopeni valeh etmiş və o, öz məlum əsərində mahalın təbiətinin bu gözəlliyini bir cümlə ilə təsvir etməyə çalışaraq yazmışdır ki, Dərələyəz mahalı Qafqazın İsveçrəsidir.

**Nəticə**

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, həm keçmişdə, həm də bugünkü tədqiqatçılar tərəfindən aparılmış elmi tədqiqatlar nəticəsində aydın olur ki, Qərbi Azərbaycanın Dərələyəz mahalında qədim dövrlərdən mövcud olmuş, orta əsrlərdə adları ayrı-ayrı mənbələrdə çəkilən toponimlərin tamamı Azərbaycan türklərinin yaratdığı adlarla qeyd edilmiş, lakin XX əsrdə bu bölgənin işğala uğraması nəticəsində bu gün bu toponimlərin çoxu XX əsrin birinci yarısından başlayaraq Ermənistan SSR, XX əsrin sonlarında isə Ermənistan Respublikası tərəfindən dövlət qərarları ilə tamamilə dəyişdirilərək erməni adları ilə adlandırılmağa başlanılmışdır.

Həmçinin mahalın tarixi coğrafiyasında olan inzibati ərazi vahidlərinin adları da eyni qərarlarla dəyişdirilmiş və erməniləşdirilmişdir. Bütün bunlarla yanaşı həm də Azərbaycan türklərinin Qərbi Azərbaycanda yaratdığı maddi-mədəni irsin böyük bir hissəsi ermənilər tərəfindən tamamilə dağıdılaraq məhv edilmiş və bu gün də ermənilər tərəfindən bu vandalizm siyasəti davam etdirilir.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. Bayramov İ. Qərbi Azərbaycanın türk mənşəli toponimləri Bakı, Elm, 2002, 346 s.*

*2. Budaqov B.Ə., Qeybullayevin Q.Ə. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı, "Nafta-Press", 1998, 452 s. (Будагов Б.Ə., Гејбуллајев. Ерм*ə*нистанда Азәрбајҹан мәншәли топонимләрин изаһлы лүғәти. Бакы, "Nafta-Press", 1998, 452 с).*

*3. Cevdet Türkay. Osmanlı İmperatorluğunda Oymak Aşiret ve Cemaatlar. Başbakanlık Arşivi Belgelerine göre. Tercüman, Kaynak eserler serisi: I. Birinci basım, İstanbul 1979, s. 962+6.*

*4. Ermənistan SSR-in xəritələri, Erevan, 1970; Ermənistan azərbaycanlıların tarixi coğrafiyası, Bakı, 1995, səh.338, 350.*

*5. Əhmədli N. S. Dərələyəz mahalının kameral təsviri (1831-ci və 1842-ci illər). Bakı, Elm və təhsil, 2017, 313 s.*

*6. Əmrahov Z. "İrəvan Quberniyasının tarixi" (1850-1917-ci illər). Bakı, "Nurlan", 2022, 368 s.*

*7. İrəvan əyalətinin icmal dəftəri (1728). Araşdırma, qeyd və şərhlərin müəllifi, tərcümə edənlər: Akademik Ziya Bünyadov və tarix üzrə fəlsəfə doktoru, Hüsaməddin Məmmədov (Qaramanli), Bakı: "Elm" 1996. – 184 s.*

*8. İrəvan vilayətinin müfəssəl dəftəri. 1590-cı il tarixli. Osmanli türkcəsindən tərcümə və transliterasiya, ön söz, araşdirma mətnləri, qeyd və şərhlər tarix üzrə fəlsəfə doktoru, dosent Hüsaməddin Qaramanlınındır, Bakı,"Nəşriyyat" şöbəsi, 2023,–576 s.*

*9. Hakopyan T.X., Məlik Baxşyan St.T., Barseğyan O.X. (erməni dilində) Ermənistan və ətraf vilayətlərin toponimlər lüğəti, I c., AD, İrəvan, "İrəvan Universiteti", 1986, 991 səh.*

*10. Həsən Mirzəyev.Qərbi Azərbaycanın Dərələyəz mahalı. Bakı, "Elm", 204, 855 s.*

*11 Məşədiyev Q. Zaqafqaziyanın Azərbaycan toponimləri. Bakı, 1990, 148 s.*

*12. Naxçivan sancağinin müfəssəl dəftəri. 9 məhərrəm 1140 (27 avqust 1727). Araşdırma, qeyd və şərhlərin müəllifi Məmmədov H. (Qaramanli), Bakı, Elm, 2001, 215 s.*

*13. Qarayev E. Qərbi Azərbaycan XIX yüzilliyin ikinci yarısı –XX yüzilliyin əvvəllərində (İrəvan Quberniyasının materialları əsasında). Bakı,"Füyuzat", 2024, 564 s.*

*14. Qorqodyan Z. 1831-1931-ci illərdə Sovet Ermənistanının əhalisi. (erməni dilində). İrəvan, "Melkonyan fond", 1932, 188 səh*

*15. Seyidbəyli E. Naxçıvan torpaq mülkiyyətinə aid XVII-XVIII əsr Kəngərli Arxeoqrafik sənədləri. Bakı, Elm, 2000, 230 s.*

*16. Yeğiazaryan O. Əzizbəyov rayonipin mədəniyyət abidələri. (erməni dilində) İrəvan, "Haypetrat", 1955, 110 s.*

*17. Кавказский календарь на 1908 год, стастический отдел, с.6; Кавказский календарь на 1910 год, отдел IV, с.458-459.*

*18. Пагиревъ Д.Д. Алфавитный указатель пятиверстной картъ Кавказскаго края, издания Кавказскаго Военно-Топографическаго Отдела. Тифлис, «Типография К.П.Козловскаго», 1913, 530 с.*

*19. Папазян А.Д. Аграрные отношения в восточной Армении в XVI-XVII веках. Ереван: АН Арм. ССР, 1972, 303 с.*

*20. Полное собрание законов Российской империи, т.34 (1859), СПб: 1861, отделение первое, ст. №34646, с.591.*

*21. Полное собрание законов Российской империи. Собр. Второе (1825-1881). Т. 42 (XLII), част 1, 1867/ СПб: 1871, д. 45259, с.382-883; Памятная книжка Эриванской губернии на 1892, с.106*

*22. Сборник сведений о Кавказе. Губернии Эриванская, Кутаисская, Бакинская, Ставропольская и Терская область, т.У, ч.1, Тифлис, Типография Главного Управления Наместника Кавказского, 1879, №1-1370.*

*23. Статистическое описапие Нахичеванское провинчии. Санкт-Петербург, 1833, СТр. 160-176; Əziz Ələkbərli. Qərbi Azərbaycan, Vedibasar, I cild, Bakı, 2000, səh.589.*

*24. Шараф-Хан Ибн Шамсаддин Бидлиси. Шараф-наме. (пер. Е. И. Васильевой). Москва, «Наука», 1967, Т. I., 362 с.*



**BAKHTIYAR HASANOV**
***Associate Professor,***
***Azerbaijan National Academy of Sciences***
***of the Institute History and Etnology named after***
***A.A.Bakikhanov, Azerbaijan,***
***https://orcid.org/0000-0003-4868-2664***
***e-mail: bahtiyarhasanli2022@gmail.com***


## HISTORICAL GEOGRAPHY OF DERELAYAZ DISTRICT OF WESTERN AZERBAIJAN

## SUMMARY


The article provides information about the historical geography of the Daralayaz district of Western Azerbaijan (today's Armenia), surrounded by high

mountains with the Basarkechar plateau in the north, the Zangezur range in the east, the Alayaz mountains and Kuku mountain in the south, and the Selim pass in the west, and the toponyms that cross the islands in the medieval sources and all of which belong to Azerbaijani Turks. An explanation is also provided based on the information in the sources regarding the origin of the name Daralayaz as a toponym given to the district. In addition, this article also reflects information about the administrative-territorial division carried out by individual states in the Daralayaz district from the Middle Ages to the present day, and also includes information about the taxes paid to the state treasury and the owners of the lands during the administrative territorial division carried out by these states. The existing toponyms created by Azerbaijani Turks in the Deralayaz district of Western Azerbaijan in the Middle Ages in connection with tribe, lineage, name, mountain, river, spring, relief, etc., whose names are mentioned in the article, were completely changed and replaced with Armenian names by the Armenian SSR and the Republic of Armenia, which occupied the region in the 20th century, by state decisions. Therefore, in order to prevent the destruction of the toponyms and material and cultural heritage by Armenians which created Azerbaijani Turks in the Wsetern Azerbaijan, should be made demands under the international organizations and addressed to them regarding the protection of these monuments.

**Keywords:** *Western Azerbaijan, Daralayaz, Alagoz, toponym, territory, villages.*

**БАХТИЯР ГАСАНОВ**
***Ведущий научный сотрудник Института Истории и Этнологии им. А.А. Бакиханова НАНА, доктор технических наук, доцент***
***https://orcid.org/0000-0003-4868-2664***
***e-mailbahtiyarhasanli2022@gmail.com***

## ИСТОРИЧЕСКАЯ ГЕОГРАФИЯ ДЕРЕЛЯЙЗСКОГО МАГАЛА ЗАПАДНОГО АЗЕРБАЙДЖАНА

**РЕЗЮМЕ**

В статье приводятся сведения об исторической географии Даралаязского магала Западного Азербайджана (ныне Армения), окруженного высокими горами с плато Басаркечар на севере, Зангезурским хребтом на востоке, горами Алаяз и горой Куку на юге и Селимским перевалом на западе, а также топонимы, пересекающие острова в средневековых источниках, которые все принадлежат азербайджанским тюркам. Также дается объяснение, основанное на информации из источников, относительно происхождения названия Дералаяз как топонима, данной статьи. Кроме того, в данной статье также отражены сведения об административно-территориальном делении, проведенном отдельными штатами в округе Даралаяз со времен Средневековья до наших дней, а также включены сведения о налогах, уплачиваемых в государственную казну, и владельцах земель в период административно-территориального деления, проведенного этими штатами. В статье описываются племена, родословные, имена, горы, реки, источники, рельеф и т. д. азербайджанских тюрков, имена которых упоминаются в статье Дералаяз Западного Азербайджана в средние века. Существующие топонимы, созданные в связи с оккупацией региона в XX веке Армянской ССР и Республикой Армения, были полностью изменены государственными решениями и заменены армянскими названиями. Поэтому для предотвращения уничтожения армянами топонимов и материально-культурного наследия, созданных азербайджанскими тюрками на территории Западного Азербайджана (нынешняя Армения), необходимо обратиться к международным организациям, действующим в этой сфере, и предъявить им требования.

**Ключевые слова:** *Западный Азербайджан, Даралаяз, Алагёз, топоним, местность, деревни.*

*Rəyçi: Tarix üzrə fəlsəfə doktoru, dosent Cəbi Bəhramov*
*Məqalə redaksiyaya daxil olub: 10.09.2025*
*Çapa qəbul olunub: 22.09.2025*

*The date of the admission of the article to the editorial office: 10.09.2025*
*Accepted for publication: 22.09.2025*